# PRESS RELEASE

## 10-cu IEEE Beynəlxalq Konfrans
## İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi

# AICT2016

**Azərbaycan, Bakı, 12-14 oktyabr 2016**
www.aict.info/2016

**[ AICT2016 Beynəlxalq Konfrans ilə 10 illik Yubiley qeyd olunur ]**




AICT2016 10-cu Beynəlxalq Konfransı Azərbaycan Respublikası, Bakı şəhərində 12-14 oktyabr 2016-cü il tarixlərində keçiriləcəkdir. AICT2016 Beynəlxalq Konfransı İKT-nin təhsildə və təlimdə, elm və tədqiqatlarda, idarəetmədə, təhlükəsizlikdə, səhiyyə sistemində, dövlət strukturlarında, kommunikasiya və rabitə sahələrində yeni və keyfiyyətli tədqiqatlar aparan elm adamlarını bir araya gətirəcəkdir. Konfransın əsas məqsədi ümumi maraq və problemlər ətrafında birləşmiş, dünyanın müxtəlif guşələrindən olan elm adamları və mühəndisləri eyni coğrafi məkana toplamaqdır. Bu konfrans adı çəkilən sahələrdə çalışan və ya təhsil alan insanlara öz elmi işlərini geniş auditoriyada təqdim etmək, geniş dairəli məsələlərin optimal həllərini tapmaq imkanı verən ən məşhur elmi konfranslardan biri olacaqdır.

AICT2016 konfransı Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Qafqaz Universiteti, Bakı Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Lomonosov adına Moskva Dövlət Universiteti Bakı filialı, Azərbaycan Texniki Universiteti, Malaysia Sabah Universiteti, AMEA İnformasiya Texnologiyaları İnstitutu, AMEA İdarəetmə Sistemləri İnstitutu, UNESCO-nun Təhsildə İnformasiya

Texnologiyaları İnstitutu, İktisadi Əməkdaşlıq Elm Fondu (ECOSF), Nar Mobile və DELL EMC şirkətləri sponsorluğu, IEEE Azərbaycan şöbəsi və Elektrotexnika və Elektronika Mühəndislər İnstitutunun (ABŞ) texniki dəstəyi ilə keçirilir. Azərbaycan, Özbəkistan, Gürcüstan, Qazaxıstan və Rusiyada keçirilmiş konfransların uğurlarına əsaslanaraq, AICT2016 Azərbaycanda İKT konfrans tarixində təşkilat səviyyəsinə və iştirakçı sayına görə əvəzsiz və maraqlısı olacağını deyə bilərik. Beynəlxalq Konfransın 10 illik yubileyi münasibətilə, AICT2016 çərçivəsində bir sıra mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

AICT2016 Beynəlxalq Konfransının əsas mövzuları aşağıdakılardır:

- Böyük verilərin idarə edilməsi və tətbiqi
- Verilənlərin Emalı və Verilənlər Mühəndisliyi
- Kiber təhlükəsizlik problemləri
- İKT tətbiqində müasir nailiyyətlər
- Kommunikasiya, şəbəkə və avadanlıqlar
- Biznes, idarəetmə və iqtisadiyyatda İKT
- Dövlət xidmətlərində İKT
- Elm, təhsil, sosial və humanitar tədqiqatlarda İKT
- Tibb və səhiyyədə İKT

**AICT2016 Beynəlxalq Konfransı haqqında daha ətraflı məlumat almaq üçün: www.aict.info**

**AICT2016 Konfransının Təşkilat Komitəsi,**
Tel: +99412 4482862, +99412 4482863,
Fax: +99412 4482861,
E-mail: aict@qu.edu.az,
Veb-sayt: www.aict.info/2016,
Qafqaz Universiteti,
Həsən Əliyev küç, 120, Xırdalan, AZ0101 AZƏRBAYCAN